Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 25 ” iyun tarixli
197 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarını həyata keçirən daşıyıcılarla bağlanılan avtomobil nəqliyyatı xidməti haqqında müqavilənin şərtləri**

**№ _________**

**“______”___________ 20______ il**

Bundan sonra Sifarişçi adlandırılacaq Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ______________________________________________ şəxsində, bir
(vəzifəsi, soyadı, adı, atasının adı)
tərəfdən və bundan sonra Daşıyıcı adlandırılacaq digər tərəfdən, ________________________________________________________________
(Daşıyıcının adı, səlahiyyətli nümayəndəsi qismində çıxış edən şəxsin soyadı, adı, atasının adı)
aşağıdakı şərtlərlə bu Müqaviləni imzaladılar.

## 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilənin predmetini parametrləri bu Müqaviləyə və onun əlavələrinə uyğun olan marşrutlar üzrə avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarında məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin (bundan sonra – məsafə əsaslı avtomobil nəqliyyatı xidməti) yerinə yetirilməsi təşkil edir.

1.2. Bu Müqavilənin qüvvədə olduğu müddət ərzində Daşıyıcı tərəfindən yerinə yetirilməli olan məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin həcmi _________________ avtobus*km təşkil edir. Daşıyıcı məsafə əsaslı avtomobil nəqliyyatı xidmətini bu Müqaviləyə və onun əlavələrinə uyğun həyata keçirir, Sifarişçi isə Daşıyıcı tərəfindən bu Müqaviləyə və onun əlavələrinə uyğun yerinə yetirilən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətini qəbul edir və ödəniş edir.

1.3. Məsafə əsaslı avtomobil nəqliyyatı xidmətlərinin yerinə yetirilməsi üçün Daşıyıcı tərəfindən “Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 sentyabr tarixli 497 nömrəli Fərmanının 4.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilən tələblərə cavab verən avtobuslardan istifadə olunur.

1.4. Məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin yerinə yetirilməsi dövrü (mərhələsi) və həcmi bu Müqavilə və onun əlavələri ilə müəyyən edilir.

1.5. Bu Müqavilənin qüvvədə olduğu müddət ərzində bu Müqavilə və onun əlavələri ilə müəyyən edilən marşrutlarda sərnişinlər tərəfindən ödənilən gediş haqqı Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilir.

## 2. Məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin dəyəri və ödənişin edilməsi

2.1. Məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin dəyəri Azərbaycan manatı ilə ifadə olunur.

2.2. Məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin dəyəri "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 sentyabr tarixli 497 nömrəli Fərmanının 3.2.2-ci yarımbəndinə əsasən müəyyən edilmiş daşıyıcılara ödəniləcək subsidiyanın hesablanması və ödənilməsi qaydasına uyğun təyin edilir.

2.3. Avtobusların sinfindən, istifadə etdiyi yanacaq növündən və fəaliyyət göstərdiyi marşrutdan asılı olaraq məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin 1 (bir) kilometrinin dəyəri, eləcə də bu dəyərdə avtobusların əldə edilməsi ilə bağlı kapital xərclərinin məbləği bu Müqavilənin 12 nömrəli əlavəsi ilə müəyyən edilir.

2.4. Sifarişçi Daşıyıcıya faktiki yerinə yetirilmiş məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin həcminə görə, lakin bu Müqaviləyə və onun əlavələrinə uyğun olaraq görüləcək xidmətlərin həcmindən artıq olmamaqla ödəniş edir.

2.5. Sifarişçi tərəfindən ödənilməli olan faktiki yerinə yetirilmiş məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin həcmi bu Müqaviləyə və onun 3 nömrəli Əlavəsinə uyğun olaraq müəyyən edilir.

2.6. Faktiki yerinə yetirilmiş məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinə görə ödənişin edilməsi Sifarişçi tərəfindən hesabat ayı üçün növbəti ayda Daşıyıcı tərəfindən verilən hesab-faktura və bu Müqaviləyə, eləcə də onun 4 nömrəli Əlavəsinə uyğun olaraq tərtib edilən Tərəflərin imzaladığı Xidmətlərin Qəbul Aktı əsasında həyata keçirilir.

2.7. Müqavilə üzrə ödənişlər Sifarişçi tərəfindən Daşıyıcının Müqavilədə göstərilən bank hesabına pul vəsaitlərinin köçürülməsi yolu ilə yalnız nağdsız şəkildə həyata keçirilir.

## 3. Məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin yerinə yetirilməsi ilə bağlı işlərin qəbulu qaydası

3.1. Bu Müqavilə və onun 2 nömrəli əlavəsi ilə müəyyən edilən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin yerinə yetirilməsi dövrünün (mərhələsinin) bitməsi tarixindən ən geci 5 (beş) iş günü ərzində, Sifarişçi "AYNA" informasiya sisteminin "elektron bilet və ödəniş aləti" altsisteminin məlumatları əsasında bu Müqaviləyə və onun 4 nömrəli əlavəsinə uyğun olaraq Xidmətlərin Qəbul Aktını iki nüsxədə tərtib edir və imzalayaraq Daşıyıcıya göndərir.

3.2. Daşıyıcı Xidmətlərin Qəbul Aktını aldığı tarixdən 5 (beş) iş günü ərzində aşağıdakıları etməlidir:

3.2.1. Xidmətlərin Qəbul Aktı ilə razılaşdıqda, həmin Aktın onun tərəfindən imzalanmış bir nüsxəsini Sifarişçiyə göndərmək;

3.2.2. Xidmətlərin Qəbul Aktı ilə razılaşmadığı halda, həmin Aktda səhv məlumatların olmasına dair sübutları (foto və ya video materiallar, "AYNA" informasiya sisteminin "elektron bilet və ödəniş aləti" altsistemi" tərəfindən qeydə alınan məlumatlar və digər sübutlar) əlavə edərək rəyini Sifarişçiyə göndərmək.

3.3. Sifarişçi Daşıyıcının təqdim etdiyi sübutlarla razılaşdıqda, Tərəflər yerinə yetirilən iş haqqında düzəliş edilmiş məlumatları nəzərə almaqla yerinə yetirilən xidmətlər üçün Xidmətlərin Qəbul Aktını imzalayırlar.

3.4. Sifarişçi Daşıyıcının təqdim etdiyi sübutlarla razılaşmadıqda, Tərəflər fikir ayrılıqlarını bu Müqavilənin VII hissəsinə uyğun olaraq həll edirlər.

3.5. Daşıyıcı tərəfindən göstərilən xidmətlərin Müqavilənin şərtlərinə uyğunluğu baxımından qiymətləndirilməsi üçün Sifarişçi heç bir məlumat vermədən və ya xəbərdarlıq etmədən maneəsiz şəkildə icrada olan və tamamlanmış xidmətlərin yoxlanılmasını həyata keçirir.

## 4. Tərəflərin hüquq və öhdəlikləri

4.1. Sifarişçinin hüquqları aşağıdakılardır:

4.1.1. Daşıyıcının bu Müqavilənin və onun 6 nömrəli əlavəsinin şərtlərinə əməl etməsinə nəzarət etmək;

4.1.2. Daşıyıcıdan bu Müqavilənin şərtlərinə uyğun olaraq öhdəliklərin lazımi şəkildə yerinə yetirilməsini tələb etmək;

4.1.3. bu Müqavilə üzrə xidmətlərin yerinə yetirilməsi çərçivəsində Daşıyıcının fəaliyyətini koordinasiya etmək;

4.1.4. bu Müqavilə və onun 7 nömrəli əlavəsinə uyğun olaraq marşrutun parametrlərini dəyişdirmək;

4.1.5. bu Müqavilənin tələblərinə uyğun olaraq məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin yerinə yetirilməsi üçün istifadə olunan avtobusların müdafiə, ictimai asayişin qorunması və fövqəladə halların aradan qaldırılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi ilə əlaqədar işlərə cəlb etmək;

4.1.6. bu Müqavilədə nəzərdə tutulmuş xidmətləri yerinə yetirmək üçün zəruri olan avtobusların və resursların mövcudluğunu yoxlamaq.

4.2. Sifarişçinin öhdəlikləri aşağıdakılardır:

4.2.1. bu Müqaviləyə uyğun olaraq yerinə yetirilən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinə görə Daşıyıcı ilə hesablaşmalar aparmaq;

4.2.2. bu Müqavilə üzrə işə başlamazdan əvvəl “AYNA” informasiya sisteminin “elektron bilet və ödəniş aləti” altsistemi”ndən istifadə üzrə Daşıyıcıya yazılı məlumat vermək;

4.2.3. normativ hüquqi aktlara uyğun olaraq müəyyən edilmiş daşıma tariflərinin düzgün tətbiq olunmasına nəzarət etmək;

4.2.4. bu Müqavilə və onun 1 nömrəli əlavəsinə uyğun olaraq daşıma şərtlərində, hərəkət marşrutlarında edilən dəyişikliklər barədə Daşıyıcını məlumatlandırmaq.

4.3. Daşıyıcının hüquqları aşağıdakılardır:

4.3.1. işin tam, vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün lazım olan bütün məlumatları Sifarişçidən tələb etmək;

4.3.2. marşrutun iş rejimində dəyişiklik edilməsi və marşrutda sərnişinlərə göstərilən nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı Sifarişçiyə əsaslandırılmış təkliflər vermək;

4.3.3. Şifarişçi tərəfindən göstərilmiş xidmətlərin əvəzinin ödənilməsi ilə bağlı dəqiqləşdirmələr aparmaq üçün Sifarişçiyə müraciət etmək;

4.3.4. Sifarişçiyə göstərilən xidmətlərin haqqının ödənilməsini tələb etmək.

4.4. Daşıyıcının öhdəlikləri aşağıdakılardır:

4.4.1. _______________ il tarixindən başlayaraq _______________ il tarixinə kimi bu Müqavilədə nəzərdə tutulmuş xidmətlərin yerinə yetirilməsini təmin etmək;

4.4.2. bu Müqavilə və onun əlavələri ilə müəyyən edilən tələblərə, o cümlədən keyfiyyət tələblərinə riayət etmək;

4.4.3. sərnişin daşımalarında sayı, xüsusiyyətləri və avadanlıqla təchizatı, eləcə də vəziyyəti bu Müqavilənin şərtlərinə və qanunvericiliyin tələblərinə uyğun olan avtobuslardan istifadə etmək;

4.4.4. avtobuslarda məlumatların, o cümlədən reklam yerləşdirilməsi ilə bağlı bu Müqavilə və onun 9 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə əməl etmək;

4.4.5. Sifarişçi tərəfindən verilən qanuni göstərişlərə əməl etmək;

4.4.6. bu Müqavilədə nəzərdə tutulmuş marşrutlarda nəqliyyat xidmətlərinin keyfiyyəti ilə bağlı sərnişinlərdən Sifarişçiyə daxil olan şikayətlərə Sifarişçinin tələbi ilə 2 (iki) iş günü ərzində əsaslandırılmış cavablar təqdim etmək;

4.4.7. nəqliyyat xidmətlərinin keyfiyyəti ilə bağlı bilavasitə Daşıyıcıya daxil olan şikayətlərin sayı və məzmunu, habelə bu şikayətlərə baxılmasının nəticələrinə əsasən görülmüş tədbirlər barədə Sifarişçiyə həftəlik yazılı məlumat vermək;

4.4.8. Sifarişçidən elektron poçt və ya faks vasitəsilə məktub (sorğu) daxil olduqdan sonra onu 2 (iki) iş günü ərzində cavablandırmaq;

4.4.9. bu Müqavilədə nəzərdə tutulmuş xidmətlərə başlamanın mümkünsüzlüyü barədə gecikmənin səbəbləri və işə gözlənilən başlama tarixi göstərilməklə dərhal Sifarişçiyə yazılı məlumat vermək;

4.4.10. Daşıyıcının bu Müqavilə üzrə öhdəliklərini lazımi şəkildə yerinə yetirməsinə xələl gətirə biləcək halların baş verməsi, o cümlədən aşağıdakılar barədə müvafiq halların baş verdiyi tarixdən əvvəl Sifarişçini xəbərdar etmək və həmin halların aradan qaldırılması tədbirlərini görməklə Sifarişçiyə 1 (bir) iş günü ərzində görülən tədbirlər və onların nəticələri barədə hesabat təqdim etmək:

4.4.10.1. Daşıyıcıya qarşı müflis olma prosesinə başlanması;

4.4.10.2. Daşıyıcının yenidən təşkil edilməsi, yaxud ləğv olunması prosesinə başlanması;

4.4.11. bu Müqavilənin şərtlərinə riayət olunmasını yoxlamaq və ona nəzarət etmək üçün Sifarişçi tərəfindən səlahiyyət verilmiş şəxslərin Daşıyıcının avtobuslarına və deposuna (qarajına) maneəsiz daxil olmasını təmin etmək;

4.4.12. videoqeydiyyat cihazlarından istifadə etməklə əldə olunan videoyazıları qeydə alındığı tarixdən ən azı 30 (otuz) gün ərzində saxlamaq və onu tələb olunduğu təqdirdə sorğunun alındığı tarixdən 1 (bir) iş günündən gec olmayaraq Sifarişçiyə təqdim etmək;

4.4.13. bu Müqaviləyə uyğun olaraq Daşıyıcı tərəfindən sərnişin daşınmasında istifadə olunan avtobus üzrə aşağıdakılar təmin edilməlidir:

4.4.13.1. avtobusun Azərbaycan Respublikası əhalisinin sanitar-epidemioloji salamatlığının təmin edilməsi sahəsində normativ hüquqi aktları ilə müəyyən edilmiş tələblərə uyğunluğu, o cümlədən salonunun və döşəməsinin təmiz olmasını oturacaqlarının üzlüyündə aydın görünən çirkli ləkələrin, banının daxili və xarici səthlərində çirklərin, yağıntı olmadığı hallarda banının istənilən elementində görünə və onun çirkli olması anlamına gələ bilən çirk qatının olmaması;

4.4.13.2. avtobusun banının daxili və xarici səthlərində zədələrin və korroziyanın olmaması;

4.4.13.3. avtobusun oturacaqlarının iri və (və ya) çoxsaylı kiçik kəsiklərin, yanıqların və ya onların səthinin 10 faizdən çoxunu tutan digər zədələrin olmaması;

4.4.13.4. avtobusun şüşələrinin təmiz olması və hər hansı şüşədə 10 santimetrdən uzun çat və ya müvafiq pəncərəsinin sahəsinin 10 faizdən çoxunu tutan zədənin olmaması;

4.4.13.5. avtobusun döşəmə sahəsinin 10 faizdən çoxunu tutan döşəmə örtüyünün görünən zədələnməsinin olmaması;

4.4.13.6. avtobus pəncərələrinin nəfəsliklərinin və lük qapaqlarının (əgər vardırsa) saz vəziyyətdə olması, onların çəplik və ilişmə olmadan rahat açılması;

4.4.13.7. avtobusun salonunda nasaz işıqlandırma lampalarının olmaması;

4.4.13.8. avtobusun daxili isitmə, sərinlətmə və havalandırma sisteminin müvafiq rejimdə daim işləməsi, xarici havanın orta gündəlik temperaturu 0°C-dən aşağı olduqda avtobusun salonunda havanın temperaturunun ən azı 12°C, xarici havanın orta gündəlik temperaturu 20°C-dən yuxarı olduqda isə 25°C-dən çox olmaması;

4.4.13.9. əlilliyi olan şəxslərin təkərli oturacaqlarından və uşaq arabalarından istifadə edən şəxslərin salona daxil olması üçün nəzərdə tutulmuş xüsusi qurğuların və avadanlıqların saz vəziyyətdə olması.

4.4.14. Sifarişçinin tələbi ilə bu Müqavilənin tələblərinə uyğun olaraq məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin yerinə yetirilməsi üçün istifadə olunan avtobusların müdafiə, ictimai asayişin qorunması və fövqəladə halların aradan qaldırılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi ilə əlaqədar işlərdə istismarını təmin etmək;

4.4.15. hesabat dövrü başa çatdıqdan sonra, audit olunmuş (kənar audit) illik maliyyə hesabatlarını növbəti ilin mayın 10-dan gec olmayaraq Sifarişçiyə təqdim etmək;

4.4.16. bu Müqavilənin tələblərinə uyğun olaraq məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin yerinə yetirilməsi üçün istifadə olunan avtobuslarda sərnişinlər tərəfindən gediş haqqının ödənilməsinə nəzarəti təmin etmək;

4.4.17. hər il aprelin 1-dən gec olmayaraq Sifarişçiyə bu Müqaviləyə və onun 8 nömrəli əlavəsinə uyğun olaraq Daşıyıcının əməliyyat fəaliyyəti haqqında illik hesabat təqdim etmək;

4.4.18. gediş haqqının sürücü tərəfindən nağd alınması hallarının qarşısının alınması üçün tədbirlər görmək;

4.4.19. əlilliyi olan şəxslərin təkərli oturacaqları və uşaq arabaları ilə səfər edən sərnişinlərin pandusdan (olduğu təqdirdə) istifadə etməsinə şərait yaratmaq;

4.4.20. avtobuslarda quraşdırılan qurğu və avadanlıqların, o cümlədən bort avadanlıqlarının işlək vəziyyətdə olmasını təmin etmək;

4.4.21. avtobusların tam sığortalanmasını (avtokasko) təmin etmək;

4.4.22. bu Müqaviləyə və onun 11 nömrəli əlavəsinə uyğun olaraq sürücüləri müəyyən edilən geyim forması ilə təmin etmək.

## 5. Qarşısıalınmaz qüvvə ilə bağlı hadisələr

5.1. Bu Müqavilənin məqsədləri üçün qarşısıalınmaz qüvvə ilə bağlı hadisələr dedikdə Tərəflərin iradəsindən və nəzarətindən kənar baş verən, əvvəlcədən görülməsi mümkün olmayan təbii fəlakətlər (zəlzələ, qasırğa, subasma və s.), epidemiya və pandemiyalar, partlayışlar, yanğınlar, xarici dövlətlər tərəfindən hərbi müdaxilə, müharibə, inqilablar, kütləvi iğtişaşlar, habelə dövlət, bələdiyyə və digər səlahiyyətli orqanların Müqavilə öhdəliklərinin icrasını birbaşa mümkünsüz edən hüquqi aktları və qərarları nəzərdə tutulur.

5.2. Tərəflər qarşısıalınmaz qüvvə ilə bağlı hadisə zamanı bu Müqavilədə nəzərdə tutulmuş öhdəliklərin tam və ya qismən yerinə yetirilməməsinə görə məsuliyyət daşımırlar.

5.3. Qarşısıalınmaz qüvvə ilə bağlı hadisənin baş verməsindən xəbərdar olan Tərəf hər hansı kommunikasiya vasitəsilə öhdəliklərinin yerinə yetirilməsinin

müvəqqəti mümkünsüzlüyü barədə digər Tərəfə dərhal məlumat verməlidir. Bu zaman belə halların baş verdiyi tarixdən 5 (beş) təqvim günündən gec olmayaraq qarşı Tərəfə yazılı şəkildə müvafiq bildiriş göndərilməlidir. Əgər qarşısıalınmaz qüvvə ilə bağlı hadisəyə məruz qalmış Tərəf bu bəndlə müəyyən edilmiş qaydada və müddətdə bu barədə digər Tərəfə məlumat verməmişdirsə, sonradan belə halları məsuliyyətdən azad etmək üçün əsas kimi istinad etmək hüququna malik deyildir.

5.4. Qarşısıalınmaz qüvvə ilə bağlı hadisənin mövcudluğunun və onun müddətinin təsdiqi səlahiyyətli dövlət orqanlarının və ya səlahiyyətli təşkilatların müvafiq bildirişidir.

5.5. Tərəflər qarşısıalınmaz qüvvə ilə bağlı hadisənin baş verməsi ilə əlaqədar fasilə verilmiş və ya dayandırılmış bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsi üçün gözlənilən müddəti göstərməklə bu halların başa çatması barədə bir-birini dərhal xəbərdar etməlidir.

5.6. Qarşısıalınmaz qüvvə ilə bağlı hadisə və onun nəticələri iki aydan çox davam edərsə, Tərəflərin hər biri bu Müqavilənin ləğvini tələb etmək hüququna malikdir.

## 6. Müqavilənin icrası üçün təminat

6.1. Bu Müqavilənin icrası üçün təminatın məbləği bu Müqavilənin qüvvədə olduğu dövr üzrə hesablanmış məbləğinin 3 faizini təşkil edir.

6.2. Bu Müqavilənin icrası üçün təminat bank tərəfindən verilən zəmanətin təqdim edilməsi yolu ilə təmin oluna bilər.

6.3. Bank tərəfindən verilən zəmanətin etibarlılıq müddəti, zəmanətlə təmin edilməli olan öhdəliklərin yerinə yetirilməsi üçün bu Müqavilə ilə qüvvədə olduğu müddətdən ən azı 2 (iki) ay artıq olmalıdır.

6.4. Əgər hər hansı səbəbdən bu Müqavilənin icrası üçün təminat qüvvəsini itirərsə, müddəti başa çatarsa və ya Daşıyıcının bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirməsini təmin etməyi başqa şəkildə dayandırarsa, Daşıyıcı bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi üçün müvafiq təminatın qüvvəsini itirdiyi gündən 10 (on) iş günü ərzində bu Müqavilədə göstərildiyi kimi Sifarişçiyə eyni şərtlərlə və eyni məbləğdə Müqavilə üçün yeni müvafiq təminat təqdim etməyə borcludur.

6.5. Daşıyıcı icrası bu Müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsindən sonra 20 (iyirmi) iş günü ərzində Sifarişçiyə bu Müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi barədə bildiriş göndərir. Bildiriş bu Müqavilədə nəzərdə tutulmuş öhdəliklərin tam yerinə yetirilməsindən əvvəl göndərilirsə, Sifarişçi bildirişi bu Müqavilənin icrası üçün təminatın məbləğini qaytarmaqdan imtinanın səbəblərini izah etməklə Daşıyıcıya qaytarır.

## 7. Mübahisələrin həlli proseduru

7.1. Tərəflər arasında bu Müqavilədən irəli gələn bütün mübahisələr və fikir ayrılıqları danışıqlar, eləcə də pretenziyalar yolu ilə həll ediləcəkdir.

7.2. Pretenziyalar yazılı şəkildə verilməlidir. Pretenziyada bu Müqavilənin və ya ona əlavələrin müvafiq müddəalarına istinad edilməklə Müqavilənin icrası zamanı yol verilmiş pozuntular göstərilir, məsuliyyətin (dəbbə pulunun) qiymətləndirilməsi, habelə pozuntuların aradan qaldırılması üçün Tərəfin görməli olduğu tədbirlər əks etdirilir.

7.3. Pretenziyaya baxılma müddəti 20 (iyirmi) gündən çox ola bilməz. Tərəflər arasında yazışmalar məktub və ya teleqram şəklində olmalıdır. Faks və ya elektron

poçt vasitəsilə məlumat göndərildiyi hallarda isə sənədin əsli sonradan təqdim edilməlidir.

7.4. Tərəflər mübahisəni məhkəməyə qədər həll edə bilmədikdə mübahisə məhkəmədə həll edilir.

## 8. Tərəflərin məsuliyyəti

8.1. Tərəflər bu Müqavilənin 4-cü hissəsində qeyd edilən öhdəliklərinin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və bu Müqavilənin şərtlərinə uyğun olaraq məsuliyyət daşıyırlar.

8.2. Daşıyıcı tərəfindən bu Müqavilənin 4.4-cü bəndində qeyd edilən öhdəliklərin yerinə yetirilməsinə başlanmadıqda, habelə həmin öhdəliklərə əməl edilmədiyi və ya lazımınca yerinə yetirilmədiyi hallarda Sifarişçinin Daşıyıcıya dəbbə pulu tətbiq etmək hüququ vardır. Daşıyıcı tərəfindən bu Müqavilənin 4.4-cü bəndində qeyd edilən öhdəliklərin yerinə yetirilməsinə başlanmadıqda dəbbə pulu bu Müqavilədə nəzərdə tutulmuş öhdəliyin yerinə yetirilməsində gecikdirilmiş hər gün üçün hesablanır. Bu halda dəbbə pulunun məbləği yerinə yetirilməli olan işin məbləğinin 10 faizi səviyyəsində müəyyən edilir, Daşıyıcı tərəfindən bu Müqavilədə nəzərdə tutulmuş və faktiki yerinə yetirilmiş öhdəliklərin dəyəri bu məbləğ qədər azaldılır. Daşıyıcı tərəfindən bu Müqavilənin 4.4-cü bəndində qeyd edilən öhdəliklərin yerinə yetirilməsinə 1 (bir) aydan artıq müddət ərzində başlanmadıqda Sifarişçi bu Müqavilənin 11-ci hissəsinə uyğun olaraq bu Müqavilənin icrasından birtərəfli imtina barədə qərar qəbul etmək hüququna malikdir.

8.3. Daşıyıcı tərəfindən bu Müqavilənin 4.4-cü bəndində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinin hər bir faktına görə Daşıyıcı Sifarişçiyə dəbbə pulunu ödəyir. Dəbbə pulunun məbləği sabit məbləğ şəklində aşağıdakı kimi müəyyən edilir:

8.3.1. bu Müqavilənin 4.4-cü bəndinin 4.4.3-cü, 4.4.9-cu, 4.4.10-cu, 4.4.12-ci, 4.4.15-ci, 4.4.18-ci, 4.4.19-cu, 4.4.20-ci, 4.4.21-ci, 4.4.22-ci yarımbəndlərində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinin hər bir faktına görə – 200 manat;

8.3.2. bu Müqavilənin 4.4-cü bəndinin 4.4.4-ci, 4.4.5-ci, 4.4.6-cı, 4.4.7-ci, 4.4.8-ci, 4.4.11-ci, 4.4.13-cü, 4.4.14-cü və 4.4.16-cı yarımbəndlərində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinin hər bir faktına görə –100 manat.

8.4. Daşıyıcı bu Müqaviləyə və onun 6 nömrəli əlavəsinə uyğun olaraq keyfiyyət tələbləri ilə bağlı pozuntuların hər bir faktına görə Sifarişçiyə dəbbə pulu ödəyir. Dəbbə pulunun məbləği bu Müqavilə və onun 6 nömrəli Əlavəsi ilə müəyyən edilir.

8.5. Daşıyıcı Müqavilədə nəzərdə tutulmuş öhdəliyin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinin digər Tərəfin təqsiri üzündən və ya ondan asılı olmayan səbəbdən baş verdiyini sübut edərsə, dəbbə pulunu ödəməkdən azad edilir.

8.6. Təqvim ili başa çatdıqdan sonra 10 (on) iş günü ərzində Tərəflər hesablaşmaları üzləşdirirlər. Hesablaşmaların üzləşməsinin nəticələrinə əsasən, Tərəflər bu Müqaviləyə və onun 5 nömrəli əlavəsinə uyğun olaraq Üzləşmə Aktı tərtib edir və imzalayırlar.

8.7. Daşıyıcı tərəfindən bu Müqavilənin 4.4-cü bəndində qeyd edilən öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi halında, Sifarişçi Daşıyıcıya bu Müqavilənin 8-ci hissəsində göstərilən qaydada dəbbə pulunun tətbiq

edilməsi yolu ilə dəbbə pulunun məbləği qədər azaldılmış məbləği ödəmək hüququna malikdir.

8.8. Daşıyıcıya bu Müqavilənin 4.4-cü bəndində qeyd edilən öhdəliklərinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsinə görə hesabat ayında tətbiq olunan dəbbə pulunun ümumi məbləği faktiki yerinə yetirilmiş məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin haqqının məbləğinin 4 faizdən çox ola bilməz.

8.9. Sifarişçi tərəfindən bu Müqavilənin 4.2.1-ci yarımbəndində nəzərdə tutulmuş öhdəliyin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi halında, Daşıyıcı Sifarişçiyə dəbbə pulu tətbiq edə bilər. Tətbiq edilən dəbbə pulunun məbləği Daşıyıcıya ödənilməli olan məbləğin 0,01 faizdən çox ola bilməz.

## 9. Müqavilənin müddəti

Bu Müqavilənin müddəti bu Müqavilənin Tərəfi olan Daşıyıcı ilə bağlanılmış “avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə”nin müddəti ilə məhdudlaşır.

## 10. Müqavilənin dəyişdirilməsi

10.1. Bu Müqavilə və onun əlavələri ilə müəyyən edilən hallar istisna olmaqla, bu Müqavilənin icrası zamanı onun əsas şərtlərinin dəyişdirilməsinə yol verilmir.

10.2. Marşrut parametrlərinin dəyişdirilməsi bu Müqaviləyə və onun 7 nömrəli əlavəsinə uyğun olaraq həyata keçirilir.

10.3. Tərəflərdən hər hansı birinin ünvanı, adı, bank rekvizitləri dəyişdikdə, habelə yenidən təşkil edildikdə 5 (beş) iş günü müddətində digər Tərəfi yazılı şəkildə xəbərdar etməyə borcludur.

10.4. Yeni daşıyıcının bu Müqavilə üzrə Daşıyıcının hüquqi varisi olduğu hallar istisna olmaqla, bu Müqavilənin icrası zamanı Daşıyıcının dəyişdirilməsinə icazə verilmir.

10.5. Sifarişçinin dəyişdirilməsi halında Sifarişçinin bu Müqavilə üzrə nəzərdə tutulmuş hüquq və öhdəlikləri yeni Sifarişçiyə keçir.

10.6. Bütün dəyişikliklər bu Müqaviləyə əlavə protokollar imzalanmaqla yazılı şəkildə rəsmiləşdirilir.

10.7. Bütün əlavə protokollar bu Müqavilənin ayrılmaz hissəsi hesab olunur.

## 11. Müqavilənin xitamı

11.1. Bu Müqavilənin 9.1-ci bəndində göstərilən müddət bitdikdə bu Müqaviləyə xitam verilir. Bu Müqaviləyə onun qüvvədə olduğu müddət ərzində Tərəflərin qarşılıqlı razılığı əsasında Müqavilənin xitamı nəzərdə tutulmuş tarixə ən azı 60 (altmış) gün qalmış yazılı bildiriş təqdim edilməklə xitam verilə bilər.

11.2. Tərəf Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş digər əsaslarla yanaşı digər Tərəfin bu Müqavilənin şərtlərini əhəmiyyətli dərəcədə pozması ilə əlaqədar bu Müqavilənin icrasından birtərəfli imtina barədə qərar qəbul etmək hüququna malikdir.

11.3. Sifarişçi bu Müqavilənin 11.2-ci bəndinə uyğun olaraq bu Müqaviləni yerinə yetirməkdən birtərəfli imtina barədə qərar qəbul etməzdən əvvəl yerinə yetirilmiş xidmətləri yoxlamaq hüququna malikdir.

11.4. Sifarişçi Daşıyıcı tərəfindən yerinə yetirilən işin yoxlanması nəticəsində bu Müqavilənin şərtlərinin əhəmiyyətli dərəcədə pozulmasını təsdiq edərsə, yoxlamanın

nəticələrinə əsasən Sifarişçi tərəfindən bu Müqavilənin icrasından birtərəfli imtina barədə qərar qəbul edilə bilər.

11.5. Bu Müqavilənin icrası zamanı Daşıyıcının bu Müqavilə və onun əlavələri ilə müəyyən edilmiş tələblərə cavab vermədiyi və ya tələblərə uyğunluğu barədə yanlış məlumat verdiyi müəyyən edilərsə, Sifarişçi tərəfindən heç bir xəbərdarlıq edilmədən və yoxlama aparılmadan Müqavilənin icrasının dayandırılması barədə qərar qəbul edilə bilər.

11.6. Sifarişçinin bu Müqaviləni yerinə yetirməkdən birtərəfli imtina etməsi barədə qərarı bu qərarın qəbul edildiyi tarixdən ən geci 3 (üç) iş günü ərzində Daşıyıcının bu Müqavilədə göstərilən ünvanına yazılı bildiriş şəklində göndərilir (bildirişin Daşıyıcıya çatdırılması barədə təsdiqi Sifarişçiyə bildirilmək şərtilə). Bu bildirişin tarixi Sifarişçinin göstərilən bildirişin Daşıyıcıya çatdırılması barədə təsdiqi aldığı tarix və ya Sifarişçinin bu Müqavilədə göstərilən ünvanda Daşıyıcının olmaması barədə məlumat aldığı tarix hesab edilir. Göstərilən təsdiqi və ya məlumatı əldə etmək mümkün olmadıqda, bildirişin tarixi kimi Sifarişçinin bu Müqavilənin icrasından birtərəfli qaydada imtina etməsi barədə bildirişi Sifarişçinin Elektron Sənəd Dövriyyəsi sistemində qeydiyyata aldığı tarixdən 3 (üç) gün sonrakı tarix müəyyən edilir.

11.7. Sifarişçinin bu Müqaviləni yerinə yetirməkdən birtərəfli qaydada imtina etmək qərarı Daşıyıcıya bu Müqaviləni yerinə yetirməkdən birtərəfli imtina barədə bildiriş verildiyi tarixdən 10 (on) iş günü sonra qüvvəyə minir və bu Müqavilə ləğv edilmiş hesab olunur.

11.8. Sifarişçi Daşıyıcıya bu Müqaviləni yerinə yetirməkdən birtərəfli qaydada imtina etmək barədə bildiriş verdiyi tarixdən 10 (on) iş günü ərzində bu Müqavilənin icrasından birtərəfli qaydada imtina edilməsi barədə qərarın qəbul edilməsi üçün əsas olan pozuntu Daşıyıcı tərəfindən aradan qaldırıldıqda bu Müqavilənin icrasının bərpa edilməsi barədə qərar qəbul etmək Sifarişçinin borcudur. Bu qayda Sifarişçinin bu Müqaviləni yerinə yetirməkdən birtərəfli imtinası üçün əsas olan Daşıyıcı tərəfindən bu Müqavilənin şərtlərinin təkrar pozulmasında tətbiq edilmir.

11.9. Bu Müqavilə hər hansı Tərəfin bu Müqaviləni yerinə yetirməkdən birtərəfli qaydada imtinası səbəbindən ləğv edildikdə, Sifarişçi yalnız bu Müqavilənin icrasından birtərəfli qaydada imtina qərarından irəli gələn faktiki dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir.

11.10. Bu Müqavilənin ləğvi, yaxud müddətinin başa çatması Tərəfləri bu Müqavilə ləğv edilənə, yaxud müddəti bitənə qədər yerinə yetirilməmiş öhdəliklərdən azad etmir.

11.11. Tərəflər bu Müqaviləyə xitam verdikdə, Müqavilə və onun 5 nömrəli əlavəsinə uyğun olaraq 5 (beş) iş günü müddətində Üzləşmə Aktı tərtib edirlər.

## 12. Müqavilənin ləğvi zamanı məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin davamlılığının təmin olunması üçün keçid dövrü

12.1. Müqavilə ləğv edildikdən, eləcə də müddəti başa çatdıqdan sonra Tərəflər Sifarişçi tərəfindən yazılı şəkildə bildirilən dövr (keçid dövrü) ərzində yeni daşıyıcı müəyyən edilənədək məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin davamlığını təmin etməli və bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirməlidirlər.

12.2. Keçid dövründə Daşıyıcı məsafə əsaslı avtomobil nəqliyyatı xidmətini göstərməyə davam etməli, Sifarişçi isə göstərilən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin haqqını bu Müqavilənin və onun 12 nömrəli əlavəsinin tələbləri nəzərə alınmaqla ödəməlidir.

## 13. Digər müddəalar

13.1. Bu Müqavilə hər bir Tərəfə 1(bir) əsl nüsxənin təqdim edilməsi şərtilə 2 (iki) əsl nüsxədə tərtib edilir.
13.2. Bu Müqavilədə edilən bütün dəyişikliklər və əlavələr yazılı şəkildə edilir və Tərəflər tərəfindən imzalandığı təqdirdə etibarlı sayılır.
13.3. Tərəflər bu Müqavilədə göstərilməyən hər bir məsələ üzrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələblərini rəhbər tuturlar.
13.4. Bu Müqavilənin əlavələri onun ayrılmaz tərkib hissələri hesab olunur.

## 14. Keçid müddəa

Bu Müqavilə üzrə nəzərdə tutulmuş dəbbə pulları 2028-ci il yanvarın 1-dən qüvvəyə minir.

## XV. Tərəflərin rekvizitləri və imzaları

| **Sifarişçi adından** | **Daşıyıcı adından** |
|---|---|
| Ünvan: | Ünvan: |
| VÖEN: | VÖEN: |
| İBAN: | İBAN: |
| Bankın adı: | Bankın adı: |
| Bankın VÖEN-i: | Bankın VÖEN-i: |
| Kod: | Kod: |
| M/h: | M/h: |
| SWİFT: | SWİFT: |
| Sədr: | Direktor: |
| ________________ | _________________ |

“Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarını həyata keçirən daşıyıcılarla bağlanılan avtomobil nəqliyyatı xidməti haqqında müqavilənin şərtləri”nə

**1 nömrəli əlavə**

## Məsafə əsaslı avtomobil nəqliyyatı xidməti göstərilən marşrutların parametrləri

**1. Marşrutun nömrəsi:**
1.1. Marşrutun fəaliyyət göstərdiyi inzibati ərazi vahidi
1.2. Marşrutun növü
1.3. Avtobusların sayı
1.3.1. o cümlədən, ehtiyat avtobusun sayı
1.4. Hərəkət marşrutu
1.4.1. düz istiqamətdə
1.4.2. əks istiqamətdə
1.5. Dayanacaq məntəqələri
1.5.1. düz istiqamətdə
1.5.2. əks istiqamətdə
1.6. Reysin uzunluğu
1.6.1. düz istiqamətdə
1.6.2. əks istiqamətdə
1.7. Avtobusların marşruta çıxış cədvəli (yay və qış mövsümü üçün ayrılıqda göstərilə bilər):

| Qrafik nömrəsi | Avtobusun sinfi | İşə başlama vaxtı | | İşin başa çatdırılması vaxtı | | İş müddəti, saat | |
